هل يشترط تحريك اللسان
عند قراءة القرآن أو الأذكار ؟

Quran oxuyarkən və ya zikr edərkən dili tərpətmək şərtdir mi?

Azərbaycan dili

اللغة الأذرية

Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

Sual: Quran oxuyarkən və ya zikr edərkən dili tərpətmək şərtdir mi?

Cavab: Allahı zikr etmək müsəlmanın ən şərəfli əməllərindəndir.

Zikri sadəcə dil ilə etməsin, zikri qəlb, dil və əzalarla etsin.

Zikri qəlb ilə etmək:

Allahın nişanələri barəsində düşünmək, Onu sevmək, Ona təzim etmək, Ona boyun əymək, Ondan qorxmaq, Ona təvəkkül etmək kimi qəlbi əməllərlə olur.

Amma dil ilə olan zikirlər:

Allaha yaxınlaşdıran hər bir tələffüz etdiyin söz ilə olur. Onu ən fəzilətlisi isə Lə iləhə illəLlah kəliməsidir.

Amma əzalarla Allahı zikr etmək isə:

Allaha yaxınlaşdıran hər bir əməl ilə olur. Namazda olan qiyam, ruku və səcdə kimi. Eləcə də cihad və zəkat kimi.

Bunların hamısı Uca Allahı zikr etməkdir.

Dil ilə deyilən zikirlər:

Quran oxumaq, Subhanallah, əlhəmdulilləh, Lə iləhə illəLlah kəlimələri, səhər və axşam zikirləri, ayaqyoluna daxil olarkən edilən zikirlər və s. Bu zikirlərdə dili tərpətmək vacibdir. İnsan yalnız dilin tərpətdiyi zaman bu zikirləri demiş sayılır.

İmam Malikdən (Allah ona rəhmət eləsin) : Namazında oxuduğu zaman heç kəs onu eşitmir hətta özü özünü eşitməyən və dilini belə tərpətməyən barəsində soruşduqda, O dedi: Bu oxumaq deyildir. Oxumaq dilini tərpətdiyi zaman oxumaq olur.[1]

İbn Useymindən (Allah ona rəhmət eləsin) soruşdular:

Namazda oxuyan zaman dili tərpətmək vacibdir yoxsa qəlbində oxusa onu əvəz edər? O dedi: Qiraətin dil ilə deyilməsi vacibdir. İnsan namazda sadəcə qəlbində oxuyarsa bu onu əvəz etməz. Eləcə də bütün zikirləri qəlb ilə demək onu əvəz etmir.Əksinə vacib olan odur ki, insan oxuduğu zaman dilini və dodaqlarını tərpətsin. Çünki o, dil və dodaqları tərpətmədən deyilsə yerinə yetmiş sayılmaz.[2]

---

[1] Əl-Bəyən vət-Təhsil 1/490
[2] Məcmu Fətəva libn Useymin 3/156